# Sahib Aslanzadənin söz çələngi



*Sahib Aslanzadə 1957-ci ildə Şəmkir rayonunun Zəyəm-Cırdaxan kəndində anadan olub. Uzun illərdir ki, Azərbaycan mətbuatında şeirləri ilə çıxış edir. «Alnıma yazılan yazı» adlı şeirlər kitabı çap olunub.*
*Hazırda Tümen vilayətində yaşayır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*

## Məndən güzgü kimi şeirlər umma

Qardaş, bu bulağın gözünə baxıb,
Beləcə-beləcə üzümə baxıb,
Məndən güzgü kimi şeirlər umma .

Məndən güzgü kimi şerlər umma-
İndi şerlərin cəhətləri var,
İndi şerlərin «höccətləri» var.
Oturub rahatca «qonaq» gözləyir.

Məndən güzgü kimi şerlər umma-
Bu boyda, buxunda bu dağlar ki, var.
Daha qərib olmaz,
Qəribə düşməz.
Daha bir ölçüyə, qəlibə düşməz,
Mənim şeirlərim, mənim sözlərim.

Məndən güzgü kimi şeirlər umma-
Birdən daş göyərər sətirlərimdən,
Birdən qış göyərər sətirlərimdən.
Birdən baş göyərər sətirlərimdən,
Qayıdıb üzünə baxa bilmərik.

## Nağıl

*Nağıl danışmıram, dünya*
**İ. İsmayılzadə**

Nağıl dili yüyrək olar,
Mən qorxuram, bu nağıllar gerçək ola.
Nağıl dili köyrək olar,
Mən qorxuram, dünya dönüb dibçək ola.

Qardaş yox, bacı yox,
Qərib dünya,
Qəm yükləsən, qəm yükünü çəkəsidi.
Bəxtim kimi ürəyimə girib dünya,
Gecə-gündüz ürəyimi sökəsidi.
Şirin nağıl, şəkər nağıl,
Kim bu dərdi çəkər, nağıl?!

Raket nağıl, atom nağıl,
Yalanı da, gerçəyi də nağıllar.
Bircə qırıq çaşsa, ağılg
Şirin nağıl, şəkər nağıl,
Boyat nağıl, bekar nağıl.

## Dünya belə getməyəcək

Duruşu özündən, boyu özündən,
Çörəyi özündən, suyu özündən.
Ruzusu başından yağan torpağım,
Şər götürməz.

Bir qarış torpaq da bir ulu kənddi,
Bir qarış torpaqda Kərəm olmuşuq.
Torpağı unutmaq ən böyük dərddi,
İşə bax, torpağı bölən olmuşuq.

Şər götürməz,
Şüşə kimi bulağım,
Şər götürməz,
Şuşa kimi oylağım,
Şər götürməz kökü Koroğlu olan.

## Dünyanın ağ günü

Qar yağıb dünyaya, dünya ağappaq,
Qoy, ləkə düşməsin qarın üstünə.
Onun bəxtinə bax, taleyinə bax,
Qar ləkə götürmür - qar nə, ləkə nə.

Qar yağıb dünyaya narahatam mən,
Dünya canımdan da əziz olubdur.
Qar yağıb dünyaya - qoy deyim dünən,
Dünya saf olubdur, təmiz olubdur.

Qar yağıb dünyaya, gətirib bəxti,
Gündüzü demirəm, ağarıb gecə.
Qar yağıb dünyaya,
Dünya xoşbəxtdi,
Bədlər bədliyindən gərək yan keçə.

## Yollar yeriyirdi

Bir yuxu görmüşəm səhərə kimi,
Mən kimə söyləyim, kimə danışım.
Elə yadımdadır yəhərə kimi,
Söyləsəm mat qalar dostum, tanışım.

Aymı pardaqlanıb, günəşmi doğub?
Xoruzlar da vaxtsız banladı bu dəm.
Yuxuda gördüm ki, qalxıb, oturub,
Mən hazır durmuşam əlimdə qələm.

Gəlirdi obaya xəyala dalıb,
Qırx ilin həsrətli subay igidi.
Gəlinlər qarıyıb, qızlar qocalıb,
Yuxusuz bacalar taybatay idi.

Çapırdı dördnala bu cavan oğlan,
Şinelli, çəkməli muraz gəlirdi.
Muştuluq verməyə fikir ver,
Dayan
Yollar yeriyirdi, doqqaz gəlirdi...

## Bu payız

Kövrəlib bu payız quzuya dönüb,
Toxunma
Bu qızlar inciyər, küsər.
Ümidlər, xəyallar arzuya dönüb,
Baxışlar, şipşirin üzlər gülümsər.

Elə bil bu payız qızlar kimidi,
Sevinci bal dadır
Qəmi bal dadır.
O, qızın gözünə baxsa kim indi,
Görər
Açıq - aşkar gözü yoldadır.

Saralmış yarpaqlar düşməyir,
Hələ
«Vağzalı» qanına işləyə, hopa.
İstər iki əlli tutub silkələ ,
Kövrəlib bir ağız
Çox çətin qopa.
Özü bilə - bilə soğular payız,
Gecikmiş toylar da od tutub yanar.
Gözə göründümü bir ərköyün qız,
Özünü hamıdan bəxtəvər sanar.

## Bəxtin yola çıxsa

Gözlərim yol çəkir
Kirpiyi qında,
Qovrulur içində şirmayı dilim.
Gözlərim yol çəkir
Gözü doyanda,
Çıxar əvəzini gör, neçə ilin...

Qayğımı çəkənlər çoxalıb bir az,
Özüm qayğıların yadına düşdüm.
Elə bir qələmim yuxalıb bir az,
Allah bilir, kimin oduna düşdüm.

Şəklənib qulağı bircə günün də,
Əliboş səhəri açammazsan, heç.
Daşlar da göyərər bu yaz günündə,
Bir daşın yanından qaçammazsan, heç.

Olub olacaqlar düyün-düyündü,
Gözlərim minillik yuxu yarıbdır.
Bu dünya kim bilir neçə löyündü,
Tamsın, tamı birdi
O da bal dadır.

Ürək var, könül var
Demək hardasa,
Taleyim qismətə saplanıb keçər.
Bəxtin yola çıxsa,
Bəxtin çağırsa,
Göylərin üstündən atlanıb keçər.

Türküstan.- 2023.- 6-12 iyun. S. 13.